AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 14/3

Bakı şəhəri 20 dekabr 2017-ci il

Nizami Gəncəvi adına Ədəbiyyat
İnstitutunun 85 illik yubileyi haqqında

Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu özünəməxsus şərəfli tarixi, böyük araşdırma ənənələri, görkəmli yaradıcıları və adlı-sanlı yetirmələri ilə tanınan mühüm elmi mərkəzlərdən biridir. Bu elmi tədqiqat institutu bir əsrə yaxındır ki, ölkəmizdə ədəbiyyatşünaslıq elminin baş qərargahı funksiyasını yerinə yetirir. Ölkəmizdə ədəbiyyatşünaslıq üzrə tədqiqatlar Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən əlaqələndirilir, istiqamətləndirilir və ədəbiyyat siyasəti sistemli və davamlı şəkildə həyata keçirilir.

İnstitut 1932-ci ilin yanvar ayından Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutu tərkibində Ədəbiyyat sektoru kimi fəaliyyət göstərmişdir. SSRİ Elmlər Akademiyası Zaqafqaziya filialı Azərbaycan şöbəsində 22 mart 1933-cü ildə yaradılmış Ədəbiyyat sektoru gələcək Ədəbiyyat İnstitutunun bazasına çevrilmişdir. 23 oktyabr 1935-ci ildə Ədəbiyyat sektorunun bazasında Dil və Ədəbiyyat İnstitutu təşkil olunmuşdur. Azərbaycan Elmlər Akademiyası 1945-ci ildə yarandıqda Dil və Ədəbiyyat İnstitutu İctimai Elmlər Bölməsinin bu qurumun tərkibində fəaliyyətini davam etdirmiş, 1969-cu ildən isə müstəqil Ədəbiyyat İnstitutuna çevrilmişdir.

İnstitut ötən 85 il ərzində Azərbaycanda filologiya elminin mərkəzinə çevrilmiş, milli-mənəvi mədəniyyətin, folklorun, klassik və müasir ədəbiyyatın, eləcə də ədəbiyyatımızın beynəlxalq əlaqələrinin, xarici ədəbiyyatın öyrənilməsi ilə ardıcıl məşğul olmuş, onun tədqiqi, nəşri və təbliği sahəsində miqyaslı tarixi işlər görmüşdür. İnstitutda elmi və təşkilati işlərin yüksək səviyyədə qurulmasında və onun qarşısına qoyulan vəzifələrin həyata keçirilməsində Böyükağa Talıblı, Bəkir Çobanzadə, Əli Nazim, Hənəfi Zeynallı, Salman Mümtaz, Səməd Vurğun, Məmməd Arif Dadaşzadə, Həmid Araslı, Məmməd Cəfər Cəfərov, Mirzə İbrahimov, Mirzağa Quluzadə, Feyzulla Qasımzadə, Məmmədhüseyn Təhmasib, Əli Sultanlı, Mir Cəlal,

Kamal Talıbzadə, Azadə Rüstəmova, Əziz Mirəhmədov, Kamran Məmmədov, Əkbər Ağayev, Qafar Kəndli, Həmid Məmmədzadə, Əflatun Saraclı, Vəli Osmanlı, Yaqub İsmayılov, Yaşar Qarayev, Bəkir Nəbiyev, İsa Həbibbəyli, Teymur Kərimli və başqa görkəmli alimlər yaxından iştirak etmişlər. Hazırda burada tanınmış ədəbiyyatşünas alimlər elmi fəaliyyətlərini uğurla davam etdirirlər.

Yuxarıda qeyd olunanları nəzərə alaraq Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 85 illik yubileyi təntənəli şəkildə qeyd edilsin.
2. Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun 85 illik yubileyinin keçirilməsinə dair Tədbirlər planı təsdiq edilsin (əlavə olunur).
3. AMEA-nın Humanitar Elmlər Bölməsinə (akademik Teymur Kərimli) və AMEA “Elm” Nəşriyyatına (Hafiz Abıyev) tapşırılsın ki, Tədbirlər planının icrasından irəli gələn məsələləri həll etsinlər.
4. AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinin rəisi, texnika üzrə fəlsəfə doktoru İlqar Quliyevə tapşırılsın ki, AMEA-nın Ədəbiyyat İnstitutunun 85 illik yubileyi ilə bağlı Tədbirlər planının həyata keçirilməsindən irəli gələn maliyyə məsələlərinin həllini təmin etsin.
5. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi akademik Rasim Əliquliyev

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ PROTOKOL ŞÖBƏSİ MƏRKƏZİ APARAT